# Tüfəng yağlanan, patrondaşlar doldurulan evdən reportaj

*Ölüm sevinməsin qoy...*
*ömrünü vermir bada,*
*El qədrini canından daha əziz bilənlər.*
*Şirin bir xatirətək qalacaqdır dünyada,*
*Sevərək yaşayanlar, sevilərək ölənlər...*

Səməd Vurğunun ev muzeyi keçmiş Fialetov küçəsində yerləşir, o, buraya ailəsi ilə birlikdə 1954-ci ildə köçmüşdür. Altı otaqdan ibarət mənzil başdan-başa ölməz şairin xatirələriylə doludur. Qeyd etmək lazımdır ki, muzey 1974-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış, 1975-ci ildə açılışı olmuşdur.

İlk otaqda Səməd Vurğunun xüsusi sevdiyi əşyalar yer alıb: Yazı masası, şəxsi kitabxanası, ov geyimi, tüfəngi və radioqəbuledicisi... Yazı masasının üzərində bir neçə əşyası və “Bir səslə” şeirinin əlyazması durur. Şairin yazı masasına xüsusi rəğbəti var imiş. Xavər xanım xatirələrində qeyd edir ki, Səməd Vurğun qəribə bir tərzdə yazı stolunun arxasına hansısa bir rəsmi tədbirə gedirmiş kimi - ayaqqabısını, kostyumunu geyinib, qalstukunu bağlayıb keçirdi. Burada, həmçinin, şairin zəngin kitabxanası da nümayiş olunur. Kitabxanada təkcə Azərbaycan və rus yazıçılarının deyil, eləcə də dünya klassiklər əsərləri yer alıb. Divarda şair 1940-cı ildə Daşkənddə olarkən gətirdiyi Nizaminin portretini və Oqtay Sadıqzadə tərəfindən çəkilmiş “Səməd Vurğun dərin düşüncələrdə” adlı portreti görmək olar. Pəncərənin qarşısında Səməd Vurğunun sevimli radioqəbuledicisi qoyulub, şair 1956-cı il mayın 12-də xəstə olduğu üçün qatıla bilmədiyi yubileyini bu radio vasitəsilə dinləmişdi. Radionun üzərində iki heykəl diqqəti çəkir. Bunlar Səməd Vurğunun “Vaqif” dramının qəhrəmanları Molla Pənah Vaqif və Ağa Məhəmməd Şah Qacardır. Heykəllərin müəllifi Kamran Əsədovdur. Səməd Vurğun “Vaqif” dramını 1937-ci ilin ikinci yarısında qələmə almağa başlayır və iki həftəyə tamamlayır. Dram səhnələşdiriləndən sonra Səməd Vurğun böyük uğur qazanır və 1941-ci ildə Dövlət Mükafatına layiq görülür. Otağın digər küncündə Səməd Vurğunun ov əşyaları-geyimi və tüfəngi nümayiş etdirilir. Məlumdur ki, şair ovu həddindən artıq sevirmiş. Qızı Aybəniz xatirələrində yazır ki, atam ova hazırlaşanda evimizdə toy-bayram olardı. O, çox böyük həvəslə sünbə ilə tüfəngini yağlayar, patrondaşına güllə yığar, ov paltarını, uzunboğaz çəkmələrini geyərdi. Biz uşaqlar da onun ətrafında fırlanıb bir iş tapşırmasını gözləyərdik. Təkcə anam onun ova getməsinə etiraz edərdi...







II

*Bu el, bu obanın əziz Xavəri,*
*Olmaz gözəllikdə tay bərabəri.*
*Çağırın, kimlərin yoxdur xəbəri,*
*Səmədə saldığı meylinə bir bax!*
**(Mikayıl Müşfiq)**

Bu şeir 1934-cü ildə Səməd Vurğunla Xavər xanımın toy məclisi zamanı Mikayıl Müşfiq tərəfindən deyilmişdir. Şeiri xatırlamağım təsadüfi deyil. İkinci otağı “fotolarda yaşayan xatirələr” adlandırmaq olar.

Diqqəti ilk çəkən isə Xavər xanımın stendi olur. Burada Səmədin Pekindən onun üçün gətirdiyi çanta, nikah şəhadətnamələri, nişan üzüyü və digər şəxsi əşyaları sərgilənir. Xavər xanım vəfat edərkən bu nişan üzüyü ilə dəfn olunmasını vəsiyyət etsə də şəriət qanunlarına görə onun sonuncu istəyi baş tutmamışdı. Bu hissədə diqqəti çəkən digər cəhətlərdən biri də Səməd Vurğunun Xavər xanıma yazdığı ilk və son məktubudur. Bu məktublar şairin xanımına necə sevgiylə bağlı olmasını bir daha sübut edir. 1932-ci il dekabrın 21-də yazılan məktubda deyilir: “Hörmətli Xavər xanım, sizi Əfsangildə gözləyəcəm. Nədənsə, elə sizi çox görmək istəyirəm ki. Rica edirəm ki, bir neçə dəqiqəlik zəhmət çəkib gələsiniz...” Son məktubunu isə 1955-ci il fevralın 3-ü Kreml Xəstəxanasında yatarkən yazmışdır: “Bu gün lap yaxşıyam. Öpürəm səni, yaman günün ömrü az olar. Yusifdən sənə bir portağal göndərdim.

*Vurğunun cananı ləzzətlə yesin,*
*Şairlər şahına bir sağ ol desin.*
*Sənin qara Səmədin”.*

Otaqda, həmçinin, şairin həyat və yaradıcılığına aid, ailəsi və dostları ilə müxtəlif illərdə istirahətdə zaman çəkilmiş çoxlu rəsmlər, “Şairin türküsü” şerinin əlyazması, Qori müəllimlər seminariyasını bitirməsinə dair sənədlər, eləcə də bəzi şəxsi əşyaları nümayiş olunur. Stenddə Səməd Vurğunun 3 gün ərzində qələmə aldığı “Zəncinin arzuları” poeması da yer ləşir ki, şair bunu Varşavada bir zəncinin alovlu çıxışından təsirlənərək yazıb.

Xavər xanımın stendinin yanındakı hissə Səməd Vurğunun “Abıqız” deyə çağırdığı qızı Aybəniz xanıma aiddir. Burada Aybəniz xanıma aid əşyalar, ailə fotoları, həmçinin 70 illik yubileyində geyindiyi milli paltar da gözə dəyir. Bu paltarı Aybəniz xanım Səməd Vurğunun arzusuna görə xüsusi tikdirmişdi. Belə ki, şair hər zaman toylarımızda gəlinlərin milli geyimdə olmalarının arzusuna uyğun olmuşdur... Otağın bir küncündə şairin ölüm anında hazırlanmış və onun üz cizgilərini özündə əks etdirən “Ölüm maskası” var. Bu maskanın müəllifi Fuad Əbdürrəhmanovdur. 1956-cı il mayın 27-si Səməd Vurğun gözlərini həyata əbədi yumur və Azərbaycan Dövlət Filarmoniyasında 3 gün şairlə vida mərasimi keçilir. Mayın 30-da isə şair torpağa tapşırılır. Vida mərasimi zamanı şairin üzüaçıq qoyulması bəzi mübahisələrə səbəb olmuşdur. Şəriət qaydalarına görə bu günah sayılırdı. Lakin çoxları həmin vaxt Səməd Vurğunun üzündə gizli, yəni bilinməyən maskadan xəbərsiz idi. Həmin maska hal-hazırda muzeyin fondunda saxlanılır.

III

*Bilirəm*
*yarpaq-yarpaq saralır*
*ömrümün atamla keçmiş çağları.*
*Bilirəm,*
*O düşən yerdə qurtarıb*
*Ömrümün ən əziz dayanacaqları...*
**(Vaqif Səmədoğlu)**

Üçüncü otaq Səməd Vurğunun yolunu uğurla davam edən iki oğluna - Yusifə və Vaqifə həsr olunub. Onlara xüsusi guşə ayrılıb ki, burada şəxsi əşyaları, hər birinin yazı masası, fotoaparatları, Vaqif müəllimin kloun kolleksiyası, əsərlərinin əlyazmaları, çəkdikləri rəsmlər sərgilənir. Həmçinin, burada Yusif Səmədoğluna aid skripka, Vaqif Səmədoğluna məxsus pianonu da görmək olar. Vaqif Səmədoğlu Konservatoriyanı bitirib, Moskvada 2 il təcrübə keçdikdən sonra 8 il musiqi sahəsi üzrə müəllimlik etmişdir. Vaqif müəllimin guşəsində 2014-cü ildə türk yazıçıları tərəfindən təqdim olunmuş “Şeir tacı”nı görmək olar. Burada da Kamran Əsədov tərəfindən hazırlanmış “Bəxt üzüyü” filminin qəhrəmanları Moşu və Söylünün, “Qətl günü” romanın qəhrəmanı Kirlikirin heykəlləri var.

IV

*Dostlar, badələri qaldırın içək!*
*Gecə ulduzludur, hava da sərin.*
*Demirəm məst olub dünyadan keçək...*
*Deyirəm mehriban düşüncələrin*
*İsti qucağında isinək bir az...*

Dördüncü otaq Səməd Vurğunun dostları, qonaqları və qələm yoldaşlarıyla ən çox toplaşdığı, söz məclisləri - şeir şənlikləri qurduğu qonaq otağıdır. Burada dövrün məşhur ziyalıları, təkcə azərbaycanlı deyil, həm də tanınmış rus yazıçı və şairləri badə qaldırmış, şair süfrəsinə qonaq olmuşdur. Geniş, işıqlı, zövqoxşayan mebellərlə bəzədilmiş bu otaqda o dövrün şeir məclislərini təsəvvür etmək mümkündür. Küncdə qoyulmuş fortepianoda Üzeyir Hacıbəyov, Fikrət Əmirov, Qara Qarayev kimi görkəmli bəstəkarlar musiqilər ifa etmiş, şairlər də sözləriylə bu məclisi bəzəmişlər. Səməd Vurğunun rus yazıçıları arasında Vladimir Luqavskoy, Konstantin Siminov, Aleksandr Fadayev kimi dostları var idi. Divardan asılmış, üzərində Səməd Vurğunun əksi olan xalça 1956-cı ildə şairin yubileyi zaman Azərbaycan Elmər Akademiyası tərəfindən hədiyyə olunmuşdur. Həmçinin burada gürcü şairi Georgi Leonidzenin şairə hədiyyə etdiyi şərab dəsti də göz oxşayır. Bu qədər əziz xatirə və əşyalar arasında təkcə otağın sol tərəfindəki saat hüznləndirir insanı. Həmin saat Səməd Vurğun dünyasını dəyişəndən sonra, saat 8-in yarısı Xavər xanım tərəfindən dayandırılmışdır. Sanki o saatla birlikdə bu otaqdakı musiqi səsləri, qəhqəhələr, şeir məclislərinin şux sədaları da kəsilmiş, əbədi olaraq dondurulmuşdur. İndi otaqda hüznlü bir səssizlik hökm sürür...

V

*Sevgilim, Xavərim, son bahar çağı,*
*Uçub tökülürdü ömrümün bağı,*
*Həyata küsmüşdüm sözümün sağı,*
*Üzümə ilk dəfə gülən sən oldun,*
*Şairin qədrini bilən sən oldun...*

Beşinci - yataq otağı bütünlüklə Xavər xanımla Səməd Vurğuna məxsusdur. Xavər xanımın cehizləri, istifadə etdiyi əşyalar, fotolar və xatirələr. Bu xatirələr Səməd Vurğunun yuxarıdakı şeirilə başlayır. O, bu şeiri evləndikləri zaman Xavər xanıma yazmışdı. Onların tanış olmasının da qəribə tarixçəsi var. Abdulla Şaiq folklorçu Hümmət Əlizadəyə öz evində toy edir və buraya çoxlu tanınmış şair və yazıçılar, alimlər dəvət olunurlar. Səməd Vurğun da təbii ki, qonaqlar arasında idi. Həmin vaxt Abdulla Şaiqin 9-cu sinifdə oxuyan baldızı Xavər xanım da anasına və bacısına kömək etmək məqsədilə onlara gəlir. Bu zaman şair Xavər xanımı görərək ona vurulur. Sonradan Abdulla Şaiqin oğlu Kamal Talıbzadə vasitəsilə Xavər xanıma məktub yazır, keçirdiyi əzablı və çətin günlərdən, kasıb olduğuna görə qızların onunla ailə qurmaqdan imtina etməsindən danışır. Nəhayət, onların ailə qurmalarına icazə verirlər. Toylarında Mikayıl Müşfiq, Mirzə İbrahimov, Hüseyn Cavid, Cəfər Xəndan, Yusif Vəzir Çəmənzəminli, Məmməd Kazım Ələkbərli və başqaları iştirak etmişlər. Xavər xanımla Səməd vurğun ailə qurduqları vaxtdan son nəfəslərinə qədər bir-birilərinə dərin məhəbbət və sədaqətlə bağlı olmuşlar. Xavər xanım xatirələrində yazır ki, son nəfəsində Səməd Vurğun “məni öz yatağına keçir, sənin yastığında can verim”, dedi. Beləcə, “Şairlər şahı” “cananının” qucağında həyatla vidalaşır. Şairin ölüm xəbərini eşidən Azərbaycan Musiqili Komediya teatrının (Səməd Vurğunun ev muzeyinin yanında yerləşir) aktyorları tamaşanı yarım qoyaraq, səhnə geyimində onunla vidalaşmağa gəlirlər...

Muzeydə, həmçinin, şairin nəsil şəcərəsi və yeni yaradılmış “Altmışıncılar” ekspozisiyası maraq doğurur. “Altmışıncılar” guşəsində dövrün ən parlaq nümayəndələrinin rəsmləri, o dövrin musiqi, moda və digər sahələrinə aid eksponatlar nümayiş olunur. Muzeyin simvolu isə söz və musiqi harmoniyasıdır...



**Hazırladı:**
**Cahan Seyidzadə**